## 2010-cu il üçün Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə dövlət mükafatlarının verilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifləri əsasında **qərara alıram:**

2010-cu il üçün Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

### Elm sahəsi üzrə

Geologiya-mineralogiya elmləri doktoru Adil Abas Əli oğlu **Əliyevə**,
geologiya-mineralogiya elmləri doktoru Elmira Hacı Murad qızı **Əliyevaya**,
geologiya-mineralogiya elmləri doktoru Fərid Həsən oğlu **Dadaşova**,
Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əkpər Əkpər oğlu **Feyzullayevə**,
Azərbaycan Milli Elmlər Akademiyasının akademiki İbrahim Səid oğlu **Quliyevə**
— “Cənubi Xəzər hövzəsinin palçıq vulkanizmi və neft-qazlılığı” elmi nəşrlər silsiləsinə görə.

### Mədəniyyət sahəsi üzrə

Xalq Artisti Alim Həmzə oğlu **Qasımova** — ifaçılıq fəaliyyətinə görə.

### Ədəbiyyat sahəsi üzrə

Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Bəkir Əhməd oğlu **Nəbiyevə**,
filologiya elmləri doktoru Məhərrəm Paşa oğlu **Qasımlıya**,
Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Teymur Həşim oğlu **Kərimova**,
filologiya elmləri doktoru Vilayət Muxtar oğlu **Quliyevə**,
filologiya elmləri üzrə fəlsəfə doktoru Nikpur Mirhüseyn oğlu **Cabbarlıya**,
filologiya elmləri doktoru Nizaməddin Şəmsəddin oğlu **Şəmsizadəyə**
— “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı” kitabına görə.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 may 2010-cu il
938